# Layiqli varis kimi

Elşad Cəmil oğlu Cəfərov 1983-cü ildə Füzuli rayonunun Əhmədbəyli kəndində ziyalı ailəsində dünyaya göz açmışdır. 2000-ci ildə Mahmudlu kənd orta məktəbini bitirmiş, 2001-2005-ci ildə Mədəniyyət və İncəsənət Universitetinin "Sənətşünaslıq" fakültəsində təhsil almışdır. Hal-hazırda isə Azərbaycan Milli Konservatoriyasında "Dirijorluq" ixtisasına yiyələnir.

Orta məktəbin aşağı siniflərində oxuduğu illərdən musiqiyə həvəs göstərmiş və qarmon alətinin ifa sirlərini məharətlə mənimsəmişdir. Oxuduğu məktəbin tədbirlərində, el şənliklərində, toylarda mütəmadi iştirak etmiş, elinin-obasının, dostlarının-tanışlarının ruhunu, qəlbini fəth etməyi bacaran gözəl qarmon ifaçısı olmuşdur.

Füzuli Rayon Mədəniyyət evinə direktor təyin ediləndə Elşad Cəfərovun bu çətin vəzifənin öhdəsindən necə gələcəyi onun gəlişini istəyənlərdə də, istəməyənlərdə də çox böyük maraq doğurmuşdu. Bu, bir gerçəklikdir ki, insanlar bir qayda olaraq həmişə yeni addımin , yeni fikrin əleyhinə olmuşlar.

Bu fəzifədə ondan əvvəl işləyən, öz ərizəsi ilə işdən gedən Qürbət Mehdiyevin bu sahədəki yüksək fəaliyyəti, işgüzarlığı, kollektivin hər bir üzvi ilə səmimi davranışı adamlarda onun gedişinə təəssüf hissi doğurmuşdu. Nəzəri cəhətdən xeyli hazırlıqlı görünən bu gənc oğlanın əməli cəhətdən özünü təsdiq etməsi üçün bir qədər zamana və gərgin zəhmətə ehtiyacı vardı.

Onun işə başladığı ilk günlərdə yaşadığı həyacanlı məqamlar da nə qədər gizlətməyə çalışsa da özünü büruzə verirdi, apaydın sezilirdi. Bu həyəcanlar, daxili narahatlıqlar məsuliyyədən doğan təbii və ötəri hisslər seli idi. Ya üzündən məsumluq, abır-həya nuru yağan bu utancaq gənc, bu həyəcan selini ram etməliydi, ya da...

Onun bu halı mədəniyyət işçiləri üçün keçirilən seminarlarda, toplantılarda şöbənin müdiri Elman Məmmədovun da diqqətindən yayınmamışdı. Elman müəllim ən çətin anlarda onu vəziyyətdən çıxarır və işinə inamını artırırdı.

Özündən başqa ətrafındakı işıqların sönməsinə çalışan çox bədxahlar görmüşük. Bütün rayon ictimaiyyətinin, o cümlədən rəhbəri olduğu böyük bir kollektivin məhəbbətini, hörmətini qazanan, qanında, qəlbində əsildən-nəsildən gələn bir saflıq, xeyirxahlıq duyğuları çağlayan Elman müəllim həmin anlarda ona dayaq oldu, bilmədiklərini öyrətməkdən yorulmadı və nəhayət ciddi zəhmətlər, səylər öz bəhrəsini verməyə başladı.

Bax elə bu yerdə Elşad Cəfərovun püxtələşməsində, tədbirlərin hazırlanmasında və keçirilməsində hər zaman onun yanında olan Füzuli rayon mədəniyyət evinin təcrübəli metodisti, şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvi Sabir Arazlının da əməyini qeyd etmək yerinə düşər.

Bahar nəfəsli, bahar həvəsli gənc mədəniy-

yət işçisinin ilk uğuru da elə bahara, Şərqin müsəlman dünyasının ən əziz bayramı olan, YUNESKO-nun "Qeyri maddi mədəni irs" inə daxil edilən "Novruz" a həsr etdiyi "Novruz çələngi" adlı meydan tamaşası ilə başlandı.

18 martda, fəaliyyətinin 18-inci günündə doğma kəndi olan Əhmədbəylidə geniş ictimaiyyət qarşısında müvəffəqiyyətlə keçirilən bu tədbir sonrakı tamaşaların, konsertlərin araya-ərsəyə gəlməsinə bir vəsilə oldu.





Çox sayda kütlənin qələbəliyi şəraitində nümayiş olunan ilk işin sevinci doğmalarının, dostlarının ona rəğbəti, həyəcanlarını qar kimi əridib yox etdi. Gənc direktor fəaliyyətində sözün əsl mənasında çiçəklənmə mərhələsinə qədəm qoydu.

Xalq yazıçısı İlyas Əfəndiyevin 100 illiyinə həsr olunan və müxtəlif məkanlarda keçirilən silsilə tədbirlər, "Şair Vahid Əlifoğlu xatirələrdə" adli ədəbi-bədii gecə, 9 mayda N saylı hərbi hissənin əsgərləri önündə keçirilən və fəxri fərmanla qiymətləndirilən "Biz sizdən öyrəndik qəhrəmanlığı" başlıqlı konsert, 15 iyunda Qurtuluş Günü ilə bağlı "İstiqlal günəşi" adlı ədəbi-bədii gecə, 26 iyunda - Azərbaycan Silahlı Qüvvələrinin yaranması ilə ilgili "Tükənməzdir ordumuzun qüdrəti" sərlövhəli konsert, 2 avqustda Horadiz şəhər ictimaiyyəti qarşısında keçirilən "Cənnətə dönübdür Horadiz bu gün" adlı konsert, 18 avqustda Sərhəd Qoşunlarının yaranmasının 95 illiyi ilə əlaqədar N saylı hərbi hissədə keçirilən "Vətən sərhəddən başlayır" adlı tədbir, 23-avqustda Füzuli rayonunun işğalının 21 illiyi ilə bağlı "Qaytar vətən borcunu" başlıqlı ədəbi-bədii gecə, Qurban Bayramı münasibətilə N saylı hərbi hissədə keçirilən "Qonşumuz xınalı bir erkək kəsdi" adlı tədbir, 18 oktyabrda - Azərbaycan Respublikasının Müstəqillik Günü ilə əlaqədar Horadiz Şəhər Muğam Mərkəzində keçirilən "Müstəqilliyimiz əbədidir" adlı poeziya müsabiqəsi... Həmin müsabiqə İctimai Televiziyada yayımlandı, fərqlənən məktəblilərə Füzuli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elman Məmmədov tərəfindən diplomlar verildi.

12 noyabrda Bayraq Günü ilə bağlı "Dalğalansın bayrağım, azad olsun torpağım" sərlövhəli ədəbi-bədii gecə, 13 noyabrda "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Bakının Qaradağ və Nərimanov rayonlarından Füzuliyə gələn məktəbli qonaqlarımız qarşısında yüksək səviyyədə təşkil olunan bədii özfəaliyyət kollektivinin konserti.

Elşad müəllim işlədiyi 8 ay ərzində keçirdiyi bu sayda tədbirlərlə kifayətlənmir. O yorulmaq bilmədən kənd mədəniyyət müəssisələri ilə əlaqəsini genişləndirir, zəif işləyən mədəniyyət ocaqlarının işlərində də dönüş yaratmağa çalışır.

Qısa vaxt ərzində öz bacarığı, zəhmətsevərliyi ilə rəhbərliyin və böyük bir kollektivin sevimlisinə çevrilmək hər kəsə müyəssər olmayan bir uğurdur. İnanırıq ki, onun ən böyük uğurları hələ qabaqdadır. Elşad müəllim arzularının, istəklərinin çiçəkləndiyi bir vaxtda ata itkisi ilə barışmalı olub. Bir neçə ildir ki, ailənin böyüklük missiyası da onun üzərinə düşübdür.

Atası Cəmil müəllim təkcə Əhmədbəylidə deyil, bütün Füzuli ziyalıları içərisində seçilən işıqlı şəxsiyyətlərdən idi. Xalqın, camaatın xeyrində-şərində həmişə öndə olardı, kara gələrdi.

Deyirlər ki, geci-tezi hər bir bacarıqlı övlad nə qədər ağrılı-acılı, gərgin mərhələlərdən keçsə də taleyin zərbələrindən qırılmır, çalışır, əzaba dözür, zəhmətə qatlaşır, nəhayət öz sülaləsinin, babasının, atasının mövqeyinə, səviyyəsinə yüksəlir, ulularının əsl layiqli varisi olduğunu əməli ilə, xisləti ilə, şəxsiyyəti ilə təsdiq etməyə nail olur. Atasında olan insani, ziyali keyfiyyətlərin əlamətlərini Elşad müəllimin hərəkətlərindən, insanlarla münasibətlərindən aydınca oxumaq olur.

*Ululardan qalıb bu hikmət bizə,*
*Ot bitər kök üstə əsli nə isə.*
*Allahdan insana ruh və can gəlir,*
*Atadan övlada şöhrət, şan gəlir.*
*Övlada mənəvi pənahdır ata,*
*Allahdan aşağı Allahdır ata*

Kərəm SALAHOĞLU,
*Azərbaycan Yazıçılar Birliyinin üzvi*

